*Hacı Çələbi adil və rəiyyətpərvər bir hökmdar olaraq, fünuni hərbiyyədə dəxi məharəti var idi. Carda, Qanıq nehrinin kənarında, Hacı Çələbi xan İrakliyə döyüş elan elədi. Bir zərbə ilə Gürcü çarı İraklinin ordusunu yıxıb yaxdı, və tam bir pozğunluğa düçar etdi. Çələbi xan 12 il Şəkidə hakimlik edib. 1755-ci ildə dünyadan köçdü.*

**Rəşid bəy İsmayılov (1877-1941)**
**"Azərbaycan tarixi" əsərinin müəllifi.**

Möhtərəm İbrahimxəlil xan!

Hər şeydən əvvəl müqəddəs və uca Allahımızın əbədi, əzəli olan salamını Sizə çatdırıram.

Mənə çatan məlumata görə 1783-cü il iyulun 4-də olacaq Rusiyanın himayinə keçmək bədnam Georqiyevski müqaviləsinə sizin də hüsnü rəğbətiniz var. Qoy sadiq dindaşım kimi Sizi xəbərdar edim ki, qətiyyən belə tədbirə yaxın düşməyin. Rus himayəsini qəbul etmək gavur boyunduruğu altına düşmək deməkdir. Bu ikinci İrakli dostunuzun növbəti fırıldağıdır. İrakli hər vəchlə çalışır ki, Qafqazda gavur ölkəsi yaratsın. Öz vəziri knyaz Abaşidzenin qızı Cəvahiri Sizə kəniz verməkdə də məqsədi bundan ibarətdir. İrakli nəinki Gürcüstanı heç ailəsini belə idarə edə bilmir. Onun arvadları arasında haki-miyyət bölgüsü üstündə dava- dalaş gündən-günə şiddətlənir. İraklinin rusları Qafqaza çağırmağından oğlanlarının hamısı narazılıq edirlər. Hətta ən gənc oğlu XII Georqi belə atasının üzünə ağ olub ki, nə üçün biz İran kimi qüdrətli bir ölkəni atıb ən sevimli yeməyi kələm olan ruslardan yapışmalıyıq. Doxsan ilə yaxındır Gürcüstan İranın təbəsi olub.

Əziz dindaşımız İbrahimxəlil xan, dostunuz İrakli rusları Qafqaza çağırmaqda böyük

İran hakimiyyətinə qarşı Nadir şahın sağlığında 1743-cü ildə Şəki üsyanına başçılıq edib hakimiyyəti ələ keçirirdi. Bir il sonra Şəkiyə hücum edən Nadir şaha Gələrsən-görərsən qalasında ciddi müqavimət göstərdi. 1747-ci ildə Nadir şah öldürüldükdən sonra Hacı Çələbi xan Şəki xanlığının ilk xanı oldu.

O, Şəki və Şirvanı, hətta Dağıstan tərəfinin bir hissəsini də idarə edirdi. Məşhur tarixçi-alim Abbasqulu ağa Bakıxanov yazır ki, Nuxulu Hacı Çələbi xan Qurban oğlu istiqlaliyyət bayrağı qaldırıraraq, Şəki, Ərəş, Qələbə sultanlıqlarını və Car-Balakən camaatlığını özündən asılı vəziyyətə saldı. Gündən-günə güclənməkdə olan Hacı Çələbi xanın hakimiyyəti beş xanı bərk narahat edirdi. Ona görə də məsləhət elədilər ki, Hacı Çələbi xan bizi saymır, bizimlə oturub-durmur, yoldaşlıq etmir, onu tənbeh etməliyik. Gücümüzü birləşdirib onu cəzalandıraq, qəflət yuxusundan ayıtmalıyıq.

Hacı Çələbini gözü götürməyən Azərbaycan xanlarını blirdilər ki, İrakli də Car döyüşündəki məğlubiyyətindən sonra on-dan yanıqlıdır. Onun əlindən zəncir gəmirir. Amma cəsarət eləyib Hacı Çələbi xanın üstünə qoşun çəkə bilmir. Xanlar məktub göndərib İraklini də məşvərətə çağırdılar. Gəlməyə razılıq verən gürcü çarı ikinci İrakli cavabında bildirdi ki, bu işin müzakirəsi üçün Gürcüstan tərəfə gəlin, əleyhinə birgə tədbir görək Çələbi xanı dəf edərik.

Görüş yeri II İraklinin təklifi ilə Gəncə yaxınlığındakı Qızılqaya seçildi. İrakli namərdlik edib qoşunla gəlmişdi. O, qoşununu yaxınlıqdakı dərin bir dərədə pusquda gizli saxlamışdı. İgid Hacı Çələbi xanın kəşfiyyatı xan-ların fikrini və İraklinin xəyanət edəcəyini öyrənmişdi. Ona görə də qoşununu Mingə-çevir düzənliyinə endirib özü də Kür çayının sol sahilində var-gəl edirdi. Qoşunu hərb etmək üçün döyüşə hazır saxlamışdı. İntizarla fürsət gözləyirdi.

# XƏYANƏT

## *(Süleyman Paşanın məktubu və Hacı Çələbi xanın igidliyi)*

səhv edir. O, özü də başa düşür ki, şüur-suzluqdan (bəlkə də qocalıqdan) özünü bəlanın qucağına atır.

Hətta mənə çatan məlumata görə İrakli özünün müsəlman məsləhətçisi vəkil Alı ağa ilə bu barədə məsləhət-məşvərət eləyəndə vəkildən soruşub ki, vəkil Daryal dərəsində yolu açıb rus dostlarımızın Qafqaza gəlməsinə kömək etmək istəyirəm. Buna necə baxırsan?

Dindaşımız vəkil Alı ağa çox uzaq görən adam kimi ona dəqiq cavab verib:

- Padşah sağ olsun, açmaq asandır, amma sonralar gör bağlaya biləcəksənmi?

Dəstə-dəstə Qafqazı fəth etməyə gələn qoşunu çıxarda biləcəksinizmi? - sualı qarşısında qoyub.

Çox hörmətli İbrahimxəlil xan, İrakli müxənnət hakimi-mütləqdir. Ona inanmaq, ona etibar etmək mümkün deyil. Niyə uzağa gedirik. 1752-ci ilin mart ayında İraklinin Gəncə yaxınlığındakı Qızılqayada beş Azərbaycan xanlarına - Gəncəli Şahverdi xana, İrəvanlı Hüseynəli xana, Naxçıvanlı Hey-dərqulu xana, Qarabağlı Pənah xana və Qaradağlı Kazım xana elədiyi namərdliyi. Onun müxənnətliyinin qarşısında Şəkili Hacı Çələbi xan olmasaydı gör onda beş Azər-baycan xanı nə günə düşərdi. Bir də ki, nə tez unutdun İraklinin əsir götürmək istədiyinin biri də Sizin atanız cənnət-məkan Pənahəli xan idi.

Əgər Gəncəli Şahverdi xanın nökərlərindən biri iti qaçan atına minib bu bəd xəbəri Şəkili Hacı Çələbi xana çatdırmasaydı, onda gör Azərbaycanda necə bir acınacaqlı vəziyyət yaranardı.

Mən təklif edirəm ki, İran şahına, ya da Türkiyə sultanına üz tutaq, gavur hökuməti olan ruslara yox. Onlardan kömək istəyək. Axı, onların birincisi dinbir, ikincisi isə dilbir və dinbir qardaşımız Türkiyədir.

Şanlı-şövkətli, əzəmətli İbrahimxəlil xan, acı göz yaşlarımla Sənə yalvarıram. Nə özünün, nə də Qafqazda yanan Türk ocağını söndürmə.

Baqi-Allah amanında qalın, dostunuz, Türkiyənin vassalı Axalsili Süleyman paşa.

1783-cü ildə yazıldı.

Hacı Çələbi xan igid və qoçaq sərkərdə idi. O, heç bir xana boyun əyib tabe olmurdu.

Bu vaxt çayın o tayında bir atlı göründü. Süvari əlini qaldırıb nəsə deyirdi. Amma çayın qıjıltısından onun nə dediyini eşitmək mümkün deyildi. Hacı əmr elədi ki, o atlını bu taya keçirsinlər.

Hacı Çələbinin hüzuruna gətirilən süvari baş əyib dedi: - Qoca baba, vali İrakli xanları əsir apardı.

Hacı Çələbi arxayınlıqla atlıya dedi:

- Qoca baban onları xilas edər, bi-lirdim ki, İrakli xanlara xəyanət məqsədilə gəlib.

Onları qurtarmaq üçün müharibə və davaya girişərəm.

Hacı Çələbi xan qoşun başçılarına və əyanlarına əmr verdi ki, bu barədə təcili məsləhətləşin. Hər nə məsləhət görürsünüz-görün, ancaq Kürü keçmək içində olsun...

Mərd Hacı Çələbinin bu sözləri sonralar xalq arasında zərb-məsələ döndü. Eldə-obada bu gün də işlənir: "Kürü keçmək içində olsun..."

Gürcüstan çarı II İraklinin namərdliyi haqqında o dövrün məşhur tarixçisi Mirzə Adıgözəl bəy (1770-1848) "Qarabağnamə" əsərində yazır: "İrakli Hacı Çələbi xanın gəlişini eşidib qorxuya düşdü. Çünki 1751-ci ildə Car vilayətindəki döyüşlərdə Teymuraz və İrakili qoşunları Hacı Çələbi xanın qoşununun zərbəsini görmüşdü. İndi çarəsiz qalan İrakli qaçmağa üz tutdu. İlahi feyzlər mühiti və hədsiz işıq mənbəyi olan mərhum rəhmətlik cənab Şeyx Nizaminin nurani qəbri və pak məzarı yaxınlığında iki ordu üz-üzə gəldi. Aralarında qətl və qarət alovlandı. Gürcüstan qoşunu biabırcasına sındı. İrakli öz ordusuna qayıtmağa fürsət tapa bilməyib qaçdı. Bütün çadırları və ləvazimatı xanlarla birlikdə, yerbəyer Qızılqada qaldı. Hacı Çələbi xan sınıqdan (Xram çayının üstündəki sınıq körpü nəzərdə tutulur. Ş.N.) yeddi verst yuxarıyadək irəliləyib onları təqib etdi. Tiflisin bəy ağaclığına yetişdi. Hacı Çələbi xan Baydar torpağında səngər qazdırdı. Oğlu Ağakişi bəyi, Tiflisdən bəri yaşamaqda olan müsəlmanlara hakim və hökmran təyin etdi. Xanları da öz vətənlərinə göndərdi."( Mirzə Adıgözəl bəy "Qarabağnamə"1950-ci il nəşri, səh.69-70).

***Şəmistan NƏZİRLİ***